**AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASININ QƏRARI**

**№ 16**

**Bakı şəhəri** "14" 05 **2024-cü il**

**Belarus Respublikasının qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyinin tanınması haqqında**

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.5-ci maddəsinə əsasən, xarici ölkələrdə fəaliyyət göstərən qida obyektlərinin təsdiqi və xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2442 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası" (bundan sonra – Qayda) ilə tənzimlənir.

Qaydanın 6.1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda müəyyən edilən məhsulların Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsulların istehsal və emal edildiyi qida obyektlərinin Azərbaycan Respublikasında qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təsbit edilməsi, ticarət tərəfdaşı olan ölkələrlə əməkdaşlığın artırılması və təkrarlanan prosedurların aradan qaldırılması məqsədilə xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyini tanıyır.

Qaydanın 6.3-cü bəndinə əsasən, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması zamanı əsas meyarlar qismində qida və yem məhsulları ilə bağlı ticarət dövriyyəsi zamanı müəyyən edilmiş qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə uyğunsuzluqların statistikası, xarici ölkənin qida təhlükəsizliyi sisteminin, o cümlədən yoxlama və nəzarət sistemlərinin Azərbaycan Respublikasında tətbiq edilən sistemlə uyğunluğu və xarici ölkənin qida təhlükəsizliyi sisteminin Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatının Kodeks Alimentarius Komissiyasının və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının standartlarına uyğunluğu nəzərə alınır.

Qeyd olunan meyarlar əsasında Belarus Respublikasının qida obyektləri (quş, quş əti və onun sub məhsulları, eləcə də yumurta emalı və istehsalı müəssisələri istisna olmaqla) üzrə təsdiq sistemi Agentliyin aidiyyəti struktur bölmələri tərəfindən araşdırılmış, həmin ölkənin təsdiq sisteminə dair texniki normativ hüquqi aktların tələblərinin Azərbaycan Respublikasında bu sahədə qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə uyğun olduğu müəyyənləşdirilmişdir.

Eyni zamanda, aparılan təhlillər nəticəsində Belarus Respublikasının qida obyektləri (quş, quş əti və onun sub məhsulları, eləcə də yumurta emalı və istehsalı müəssisələri istisna olmaqla) üzrə təsdiq sisteminin ekvivalentliyinin cari ilin 1 iyun tarixindən etibarən tanınması məqsədəuyğun hesab edilmişdir.

Qeyd olunanlara əsasən, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.5-ci maddəsini və Qaydanın 6.1-ci və 6.3-cü bəndlərini rəhbər tutaraq, Agentliyin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Belarus Respublikasının qida obyektləri (quş, quş əti və onun sub məhsulları, eləcə də yumurta istehsalı və emalı müəssisələri istisna olmaqla) üzrə təsdiq sisteminin ekvivalentliyi 2024-cü il 1 iyun tarixindən tanınsın.

**2.** Agentliyin Aparatının Beynəlxalq əlaqələr və protokol şöbəsi Belarus Respublikasının qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyinin tanınmasına dair qərar barədə 7 (yeddi) iş günü müddətində xarici səlahiyyətli qurumlara diplomatik kanallar vasitəsilə rəsmi məlumat verilməsini təmin etsin. Eyni zamanda, müqabil tərəfin aidiyyəti dövlət qurumunun nəzərinə çatdırılsın ki, Qaydanın 6.2-ci bəndinə əsasən, təsdiq sisteminin ekvivalentliyi tanınan ölkədə yerləşən təsdiq edilmiş xarici qida obyektlərinin siyahısı yeniləndikcə həmin ölkənin aidiyyəti dövlət qurumu tərəfindən diplomatik kanallar vasitəsilə Agentliyə məlumat verilir.

**3.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi Belarus Respublikasından idxal olunan qida və yem məhsullarına münasibətdə Qaydanın 6.9-cu bəndinə uyğun nəzarətin davamlı icrasını təmin etsin.

**4.** Agentliyin Kollegiyasının məsul katibi **Asif Əbdüləzimov** bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**5.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentliyin Kollegiyasının 2024-cü il 14 may tarixli 38 nömrəli iclas protokolu.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikası**
**Qida Təhlükəsizliyi Agentliyinin sədri** **Qoşqar Təhməzli**